# Yeni koronavirus (SARS-CoV-2) səbəb olduğu infeksiyanın (COVID-19) yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasına daxil olarkən/çıxarkən və binada qalarkən / hərəkət edərkən riaət olunası sanitar-gigiyenik tələblər

## MÜŞAHİDƏÇİNİN, SEÇKİ SUBYEKTİNİN VƏ MEDİA NÜMAYƏNDƏSİNİN NƏZƏRİNƏ!



Səsvermə binasına daxil olarkən Məntəqə Seçki Komissiyanın səlahiyyətli şəxsinin yanında termoskrininq (temperatur ölçülməsi) keçin. Qızdırma - 37 ° C və ya 37 ° C-dən çox temperatur müəyyən olduqda, təkrar temperaturnuz yoxlanılacaqdır (5 dəqiqəlik fasilələrlə).

Təkrar qızdırma müəyyən olunduğu halda, müşahidəçi, seçki subyektinin və media nümayəndəsi seçki binasına buraxılmayacaq.

Səsvermə otağına girərkən girişdə yerləşdirilmiş əlin dezinfeksiyaedici məhlulla əllərinizi təmizləyin.

Səsvermə binasına girərkən və binada olarkən maskadan istifadə edin.



Sağlamlıq vəziyyətinə görə maska taxmaqda çətinlik çəkirsinizsə və bu tibbi/həkimin arayışa, yaxud müvafiq xəstəlik haqqında hər hansı bir təsdiqləyən sənədə görə təsdiqlənirsə maskadan istifadə etməyiniz tələb olunmayacaq.

Maska taxma qaydalarının pozulması halında müşahidəçiyə, seçki subyektinin və media nümayəndəsinə xəbərdarlıq veriləcəkdir. Xəbərdarlığa baxmayaraq, şəxs maska taxma qaydalarını pozmağa davam edərsə, Məntəqə Seçki Komissiyasının sədri ona seçki məntəqəsini tərk etməsini göstəriş edir. Əgər pozan seçki məntəqəsini tərk etmirsə, Məntəqə Seçki Komissiyası müəyyən olunmuş qaydada onu səsvermə məntəqəsindən xaric edilməsinə dair qərar qəbul edir. Komissiyanın qərarını icra etmək üçün lazım gəldiyi halda, polis çağırılacaq.

Əgər səsvermə binasında olarkən təkrar termoskrininqə ehtiyac olarsa və yoxlanma nəticəsində hərarətiniz aşkar olunduqda, səsvermə binasını tərk etməlisiniz.

Əgər təkrar termoskreyninq nəticəsində hərarət aşkar olunduqda müşahidəçi, seçki subyektinin və media nümayəndəsi seçki məntəqəsini tərk etmirsə, Məntəqə Seçki Komissiyası müəyyən olunmuş qaydada onu səsvermə məntəqəsindən xaric edilməsinə dair qərar qəbul edir. Komissiyanın qərarını icra etmək üçün lazım gəldiyi halda, polis çağırılacaq.

Qızdırma səbəbinə görə seçki subyektinin nümayəndəsi səsvermə binasına buraxılmadıqda və yaxud səsvermə binasını tərk etdikdə, seçki subyektinin digər nümayəndə təyin etməyə hüququ var, o, səsvermə binasına Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının pasportunu təqdim etdikdən və seçki administrasiyasının müvafiq elektron proqramında təyin olunması barədə məlumatı yoxlanıldıqdan sonra icazə verilir.



Səsvermə binasında yerləşdirilmiş qapalı konteynerə birdəfəlik salfetləri və digər gigiyenik tullantıları atın.

Səsvermə binasını tərk edərkən çıxışda təmin olunmuş əlin dezinfeksiyaedici məhlulundan istifadə edin.


ცესკო
საქართველოს საარჩევნო ადმინისტრაცია

საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და სწავლების ცენტრი

USAID
FROM THE AMERICAN PEOPLE

International Foundation for Electoral Systems